# “Gecə və gündüzün çatdığı hər yerə bu iş də (İslam dini) çatacaqdır. Allah, qüdrətlinin izzəti və zəlilin zilləti ilə, bu dini daxil etmədiyi nə bir şəhər, nə də ki bir kənd evi buraxmayacaq

Təmim Əd-Dəridən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: “Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: “Gecə və gündüzün çatdığı hər yerə bu iş də (İslam dini) çatacaqdır. Allah, qüdrətlinin izzəti və zəlilin zilləti ilə, bu dini daxil etmədiyi nə bir şəhər, nə də ki bir kənd evi buraxmayacaq, Allahın İslamla izzətləndirdiyi şərəflənəcək, küfrlə zəlil etdiyi isə zəlil olacaqdır” Və Təmim əd-Dəri deyərdi: “Mən bunu öz ailəmdə müşahidə etdim, artıq onlardan İslamı qəbul edənlərə xeyir, şərəf və izzət nəsib oldu. Onlardan kafir olanlara isə zillət, alçaldılma və cizyə vermək nəsib oldu.

[Səhih] [Əhməd rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, bu din yer üzünün hər tərəfinə yayılacaq, gecə və gündüzün çatdığı hər yerə bu din də çatacaq. Allahu Təalə şəhər və kəndlərdə, səhrada və ya çöllüklərdə bu dini daxil etmədiyi bir ev buraxmayacaq. Kim bu dini qəbul edər və ona iman edərsə, İslamın izzəti ilə izzətlənər. Kim onu rədd edər və onu inkar edərsə, zəlil və alçalmış olar. Sonra səhabə Təmim əd-Dəri (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verdiyi bu şeyi xüsusi olaraq öz ailəsində müşahidə etdiyini xəbər verdi. Çünki onlardan kim müsəlman oldusa, o, şərəf, izzət və xeyirə nail oldu. Onlardan hər kim kafir oldusa, müsəlmanlara mal (pul) verməklə yanaşı, zillətə və alçalmağa məruz qaldı.

https://www.sunnah.global/hadeeth/az/show/11220